

Mübariz Süleymanlı

## YOL GEDİRƏM

Çiynimdə yatmış baxtım,
Mənzilə çatmış vaxtım,
Sularda batmış taxtım,
Gedirəm, yol gedirəm.

Dilim-dilim dilimlə,
Qabar-qabar əlimlə,
Xeyirxah əməlimlə,
Gedirəm, yol gedirəm.

Ruhum başımın üstə,
Aslan kimi qəfəsdə,
Elə bil son nəfəsdə,
Gedirəm, yol gedirəm.

Qəlbimi dağlayanla,
Gözümü bağlayanla,
Özümə ağlayanla,
Gedirəm, yol gedirəm.

Ovcumda torpağımla,
Kirimiş dodağımla,
Tutmayan ayağımla,
Gedirəm, yol gedirəm.

## İNANMIRAM

Gecə də, gündüz də əhdin pozubdur,
Bu yola, bu rizə inanmıram mən.
Gecələr yuxumu yalan yozubdur,
Lal baxan dənizə inanmıram mən.

Yalanı, talanı çoxdur dünyanın,
Könül təsəllisi yoxdur dünyanın.
İblis də evini yıxdı dünyanın,
Dünyanın özünə inanmıram mən.

Yaranın üstünə köz basanların,
Əhdi-ilqarını tez pozanların,
O ülvi hisslərin, xoşbəxt anların,
Soyuyan közünə inanmıram mən.

Fırlanır tərsinə yerin oxu da,
Bir kərə görmədim yalan yuxuda.
Geridə qalıbdır ömrün çoxu da,
Çoxuna, azına inanmıram mən.

Ömrümü-günümü əlimdən alıb,
Sevən ümidlərim solub, saralıb.
Niyə dilim susub, gözüm qaralıb,
Aldadan gözünə inanmıram mən.

## GECƏLƏRDƏ

Aylı bir gecədə dünyaya gəldim,
Bir zülmət gecəsi bağlanar gözüm.
Büdrəyib yıxıldım, yenə dikəldim,
Sonda tənha qaldım, qalmadı dözüm.

Günəş qürub edib, axşam düşəndə,
Bükərəm özümə kədəri, qəmi.
Bir ulduz axanda, yarpaq düşəndə,
Olur xatirələr könül həmdəmi.

Bir karvan yükü qəlbimin yükü,
Çəkmək istəyirəm, çəkə bilmirəm.
Qürubun rəngləri, torpağa çökür,
Gözümü yollardan çəkə bilmirəm.

Döyünür ürəyim yaralı quştək,
Qəlbim qan ağlayır hər an gecələr.
Yazım da, yayım da olubdu qış tək,
Təsəlli gətirməz yalan gecələr.

Sevgini gündüzlər görməyə nə var,
Çalış, sən onu gör lal gecələrdə.
Gündüzə bir an da yoxdu etibar,
Gecəyə sirdaş ol, qal gecələrdə.

## Çağlar qəlbim

Mən bir eşqin təşnəsiyəm,
Bu eşq məndən çox uzaqdır.
Vətənimin gur səsiyəm,
Vətən yanan bir ocaqdır.

Mən Günəşin şöləsiyəm,
Mən bir sevgi nəğməsiyəm,
Sevənlərin nəfəsiyəm,
Qəlbim çağlar bir bulaqdır.

Mən yurdumun bir daşıyam,
Sirr verənin sirdaşıyam,
Mərd atamın qardaşıyam,
Kədər mənə bir qonaqdır.

Mən bir zirvə, mən bir dağam,
Zülmət yolda gur çırağam,
Sözlərimlə hər an sağam,
Dünya sanki bir maraqdır.

Fırtınalı bir dənizəm,
Əlimdəki qələm nizəm.
Mən ölməzəm, mübarizəm,
Ölüm məndən çox uzaqdırl

## Ay ürək

Zarafat eləmə mənlə bu qədər,
Məni yarı yolda qoyma, ay ürək.
Ruhumda, qanımda, damarımdasan,
Aldanıb iblisə uyma, ay ürək.

Sən mənə yoldaşsan doğulan gündən,
Bilirəm küsmüsən bu yolda məndən,
Bircə istəyim var ürəyim səndən,
Yorulub yollardan doyma, ay ürək.

Yağışda, boranda, qarlı qışda da,
Sevincdə, kədərdə, hər alqışda da,
Mənimlə mülayim davranışda da,
Sirrimi kimsəyə yayma, ay ürək.

Mən səni sevirəm, sən ki, canımsan,
Əbədi qismətim, ilk nübarımsan,
Bahar təravətli vəfadarımsan,
Bu cavan canıma qıyma, ay ürək.

Fikrim də, zikrim də, adım da sənsən,
Acılı-şirinli dadım da sənsən,
Sönməyən ocağım, odum da sənsən,
Mübarizi tənha qoyma, ay ürək.

## YAXŞILIQ

Sən yaxşılıq elə, gətirmə dilə,
Bil, vaxtı gələndə itməz yaxşılıq.
İnsanlıq ucalır yaxşılıq ilə,
Cavabsız, əvəzsiz ötməz yaxşılıq.

Yaxşıyla başlanır yaxşılıq adı,
Yaxşılıq əvəzsiz, başqa dünyadır.
Adəmin yolu da yaxşılıqdadır,
Tükənməz yaxşılıq, getməz yaxşılıq.

Çalışın həyatda yaxşı olmağa,
Yaxşı ad qazanıb, yaxşı qalmağa.
Yaxşılıq körpüsün qurub salmağa,
Tələsin, pisliklə bitməz yaxşılıq.

Mübariz yaşadı yaxşı ad üçün,
Yaxşılıq eylədi, yaxşı ad üçün.
Söz dedi, iz qoydu yaxşı ad üçün,
Bildi ki, heç zaman itməz yaxşılıq.

## Alın yazım

Mən ki, gülüm taleyi kəm,
Bəxti qara bir insanam,
Canımdadır kədərlə qəm,
Öz-özümlə vuruşanam.

Üzü dönüb fələyin də,
Ələnirəm ələyində,
Yazın, qışın küləyində,
Mən ruhumla danışanam.

Gözümdə yaş gilələnir,
Kipriklərimə bələnir,
Dərd üzümdən səpələnir,
Dərdlərimə qarışanam.

Gecə mənə sirdaş olur,
Ruhum ona yoldaş olur,
Köksümdə ürək daş olur,
Tənhalıqdan alışanam.

Budur mənim alın yazım,
Qəm içində batım, azım,
Daha nə deyim, nə yazım,
Taleyimlə barışanam.

## ÖMRÜN PAYIZI

Elə bil, qəlbimə payız gəlibdir,
Üşüdür ruhumu yağan yağışlar.
Qızılı yarpaqlar səpələnibdir,
Boylanıb yollara baxır baxışlar.

Hər anı boz qışa bir addım yaxın,
Hər günü ömrümə bir xatirədir.
Hər düşən yarpağa bir dönüb baxın,
Bilərsiz bu həyat bir əfsanədir.

Kim bilir, bu duman niyə küskündür?
Payızdan xəlvətcə nə soruşur qış?
Sanki qəriblikdən geri dönübdür,
Yatanı yuxudan oyadır yağış.

Göstərir gələndə boz qış özünü,
Alır ağuşuna yazı payızı.
Boyayır ağ rəngə bu qış özünü,
Yamanca sərt olur ömrün payızı.

## İZİM QALAR

Mən dünyadan köçər olsam,
Sözüm qalar, közüm qalar.
Bu dağlardan keçər olsam,
Hər daşında izim qalar.

Yaşayaram ürəklərdə,
Xeyirxah əməllərimlə.
Hey qucaram bu torpağı,
Tanrı verən əllərimlə.

Zirvəsində gözüm qalar,
Xəyal gəzər, o dağlarda.
Çeşmə-çeşmə sözüm qalar,
Su içdiyim bulaqlarda.

Anamın ətrin alaram,
Al laləli düzənlərdən.
Bəlkə ruhumla qalaram,
Göz oxşayan çəmənlərdə.

Hər daşında yaşar izim,
Əmanətdi mənə kəndim.
Mənəm sənin Mübarizin,
Şah şöhrətdir mənə kəndim.

## DURNA...

Durnalar uçanda xəyallarım da,
Bir payız gecəsi durnatək uçur.
Sanki bahardakı xoş anlarım da,
O səmtə üz tutub hey qanad açır.

Durnalar dəyişir yerin payızda,
O isti nəfəsli ocaq axtarır.
Yuvasın dəyişir sərin payızda,
Ona əl uzadan qucaq axtarır.

Bir durna qatardan düşərmi uzaq,
Ona yol göstərən Tanrım özüdür.
Hər elə yaraşır müjdəli qonaq,
Qonağın sözü də Tanrı sözüdür.

Ölkələr dolaşır, gəzir durnalar,
Ellərdən-ellərə aparır xəbər.
Hər yeri yüksəkdən sezir durnalar,
Sanki sinəsində aparır zəfər.

Səmada rəqs edib süzəndə durna,
Bilin ki, o eldən tamam razıdır.
Torpaqda qürurlu gəzəndə durna,
Bilir ki, gələn yaz onun yazıdır.

Küləklər, boranlar səmtin dəyişməz,
Yaşamaq eşqiylə gedən durnanın,
Durnalar heç zaman qəmgin görünməz,
Öz eşqi özünü didən durnanın.

## Sevən mənəm

Su torpağı sevən kimi,
Gülüm, səni sevən mənəm.
Dil dodağı sevən kimi,
Dilim, səni sevən mənəm.

Qayan da var, daşın da var,
Bilinməyən yaşın da var.
Çox bəlalar başında var,
Elim, səni sevən mənəm.

Bazardüzü meydanındır,
Mərd oğullar aslanındır.
Şirvan, Muğan cahanındır,
Milim, səni sevən mənəm.

Sən zümrüdüm, sən almazım,
Qocalsa da saralmazım.
Qiyməti heç azalmazım,
Ləlim, səni sevən mənəm.

Can almağa çox tələsmə,
Xəzan olub dərdli əsmə.
Yollarımı hələ kəsmə,
Ölüm, səni sevən mənəm.

Xoş baxışlar dərdə salar,
Dərd çəkməkdən dərd saralar.
Mübariz də sənsiz qalar,
Balım, səni sevən mənəm.

## ŞAİRLƏRƏ

Şairlər bir-birin tələsdirəndə,
Fələk vaxt, vədəsiz yel əsdirəndə,
Başının üstünü söz kəsdirəndə,
Mən şeir yazandan şeir gözlərəm.

Nə yazdı bilmirəm, nədən yazdılar?
Sözün qürbətində gəzib azdılar.
Yazanlar bu gün də tamam azdılar,
Mən sevən aşiqdən şeir gözlərəm.

Babadan, nənədən min-min məsəlli,
Dərd bilən dərdliyə verər təsəlli.
Başında misrası otuz, ya əlli,
Mən sevən aşiqdən şeir gözlərəm.

Varlığın sirrindən misal çəkdilər,
Peyvəndlə-calaqla ağac əkdilər.
Mövlanə gözüylə qan-yaş tökdülər,
Mən şeir yazandan şeir gözlərəm.

Şeyx Nizamisi də, Füzulisi də,
Mirzə Şəfisi də, Bürunisi də.
Eşq elmi açdılar xalqın dilində,
Mən şeir yazandan şeir gözlərəm.

## SORUŞMA

Gəzəndə laləzar çölü-çəməni,
Çiçəyin ətrini güldən soruşma.
Görərək dözdüyüm çətinlikləri,
O ötən anları ildən soruşma.

Yağışlar yağanda çay kükrəyəndə,
Leysanlar dərənin səmtin əyəndə.
Dağları, daşları sel kürəyəndə,
Qəzəbin səbəbin yeldən soruşma.

Sevgi məktubunu yara yazanda,
Bu nakam baxtımı xeyrə yozanda,
Tanrı taleyimi qara yazanda,
Sevirəm sözünü dildən soruşma.

O qulac saçını kaş darayaydım,
Uğursuz sevgimi kaş arayaydım.
Təbib tək yaramı kaş sarıyaydın,
O gözün rəngini teldən soruşma.

Əgər hünərin var, gəl, bu dərdə döz,
Yandırır qəlbimi, göynədir bu köz.
Mübariz gözlədi səndən bircə söz,
Gəl mənim sevgimi eldən soruşma.